# Misir xalq mahnılarının təsnifatı

*Zedan Mona Abdel-qəni 2004-cü ildə Misirin Helwan Universitetinin Musiqi Təhsili Fakültəsində bakalavr pilləsini fərqlənmə diplomu ilə bitirib. 2005-ci ildən həmin Helwan Universitetin Musiqi Təhsili Fakültəsində dərs deyib. YUNESCO-nun rəhbərliyi altında "Xüsusi ehtiyaclılara münasibətdə anaların qayğısı" adlı tədris proqramında iştirakçı olub. 2006-cı ildə Helwan Universitetində "Aktiv təlim üsulları", 2007-ci ildə "Elmi tədqiqat metodları", "Kredit saatları", "Kommunikasiya bacarıqları", "Təlimdə texnologiyanın tətbiqi", "Tədris prosesində keyfiyyət standartları" adlı kurslar keçib. 2008-2010-cu illərdə ordakı konservatoriyada magistrlik oxuyub. 2011-ci ildənsə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının doktorantıdır. Misirdə və Azərbaycanda çap üzü görən bir neçə məqalənin müəllifidir, bir sıra konfranslarda çıxışlar edib.*

Zedan Mona Abdel-Qəni

*Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının doktorantı*



XIX-cu əsrin əvəllərindən başlayaraq, inkişaf etmiş dövlətlər milli irsin öyrənilməsinə, tədqiq edilməsinə böyük diqqət ayırmağa başladılar. Bunun da nəticəsi olaraq bu dövlətlərdə xalq sənəti və tarixi keçmişi əks etdirən muzeylər, onların tədrisini reallaşdıran universitetlər yaradılmış, beynəlxalq konfranslar keçirilmiş və bununla yanaşı xalq yaradıcılığı, xüsusilə xalq mahnıları haqqında ən mükəmməl məlumatları əhatə edən kitabların nəşrinə rəvac verilmiş, həm də xalq mahnılarının araşdırılması ilə bağlı beynəlxalaq tədqiqat proqramlarının hazırlanmasına dair qərarlar verilmişdi. Qeyd etdiyimiz kimi universitetlərdə şifahi xalq ədəbiyyatının tədris edilməsinə start verilməsi xalq yaradıcılığına xüsusilə onun büyük qollarından olan xalq mahnılarının toplanması və tədqiq edilməsi xalqın bu zəngin xəzinəsinə olan diqqətin bariz nümunəsi idi.

Dünyanın qabaqcıl ölkələrində xalq yaradıcılığına böyük qayğı və diqqətin fonunda ərəb dövlətləri də xalq yaradıcılığına önəmli əhəmmiyyət ayırmağa başladılar. 1969–cu ulin dekabrında Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində keçirilən beynəlxalq konfrans qeyd olunanlara parlaq nümunədir. Konfransın xalq yaradıcılığı üzrə təşkilat komitəsi incəsənət komissiyası ilə birlikdə xalq irsinin toplanması, onun ən dəqiq

şəkildə təsnifatının aparılması sahəsində işlərin uğurla reallaşması üçün xalq yaradıcılığı mərkəzinin təsis edilməsini qərarlaşdırdı. Haqqında söhbət açdığımız konfrans əsnasında xalq musiqilərinin təsnifatı ətrafında geniş müzakirələr aparıldı və bunun nəticəsi olaraq yekdil rəy bundan ibarət oldu ki, xalq mahılarının təsnifati coğrafi və mövzu nöqteyi–nəzərindən aparılsın.

Coğrafi əsas üzərində xalq mahnılarının təsnifatı zamanı regionların özəl həyatı, buradakı insanların istifadə etdikləri fərqli ləhcələr və xüsusi həyat tərzi mühim əhəmiyyət kəsb etdiyi halda, xalq mahnılarının mövzu üzrə aparılan təsnifatında isə xalq mahnılarının ictimai həyatla, insanların məişəti ilə, mərasimlərlə, dini həyatla, o cümlədən dini bayram və ayinlərlə, həm də insan həyatının ayrılmaz bir hissəsinə çevrilən əmək və zəhmətlə bağlılığı ön plana çəkilir.

Lakin bütün qeyd edilənlərə rəğmən Misirin xalq yaradıcılığı ilə məşğul olan mütəxəsislərinin bəziləri xüsusilə M.Ə.Əl-Şəl mövzular üzrə xalq mahnılarının təsnifatında aşağıdakı amilləri də nəzərdə saxlamağı məqsədəuyğun hesab edir:

*1.Əkin-biçin və pambıq yığımı mövsümünün başlanması və s. bu kimi kənd təsərrüfatı sahəsini əhatə edən mövzular.*

*2.*Nişan *taxma, başlıq vermə, xınayaxdı və nigaha girmə ilə bağlı mövzular.*

*3.*Vətənin müdafiə*sinin başlıca yer tutduğu vətənpərvərlik mövzuları.*

*4.*Müqəddəs kitabımız "Qurani Kərim"*-ə aid Quran qissələri, Peyğəmbərlərin həyat və fəaliyyəti və onların mədhi ilə əlaqədar mövzular.*

*5.*Hər bir qarış Vətən torpağını yağılardan təmizləməyə Vətən oğullarını səsləyən hərbi çağırışa aid mövzular.

*6.*Əxlaq, yüksək mənəvi keyfiyyətlər, insan fəziləti və humanizmi *eləcə bu kimi mənəvi dəyərlərə aid mövzular.*

Coğrafi nöqteyi-nəzərdən də xalq mahnılarının təsnafatına gəldikdə bəşər sivilizasiyasının beşiyi olan Misirin şimal-şərqdən Asiya ilə kəsişmə nöqtəsinə malik olmasını, digər tərəfdən Aralıq dənizi ölkəsi olan bu diyarın qərbdən Şimali Afrika ilə həmsərhəd olmasını, cənubdan Cənubi Afrikaya və şərqdən Qırmızı dənizə qonşu olmasını nəzərdən qaçırmaq olmaz, axı bütün bunlar Misirin çox müxtəlif sivilizasiyaları özündə ehtiva etməsindən xəbər verir.




Misirin belə bir coğrafi mövqe tutması orada hər birinin xüsusi ləhcəsi və fərqli quruluşlara malik musiqisi olan yeddi folklor bölgəsinin yaranmasına gətirib çıxartmışdı. Bu regionlar üzrə xalq mahnılarının ictimai mövzuları da hər bir bölgənin adət-ənənələrinə uyğun olaraq müəyyən dərəcədə bir–birindən fərqli xüsusiyyətlərə malikdir. Lakin bütün bu orijinal və bənzərsiz spesifik xüsusiyyətlər heç də Misir Ərəb Respublikasının xalq musiqi və mahnılarının oxşarlığına, onlar arasında ortaq məxrəcin olmasına mane ola bilmir, əksinə bir kökə bağlılıq, bir kökdən qaynaqlanmaq bütün yeddi regiona aid folklor nümunələrini, o cümlədən xalq mahnı və musiqilərinə müştərəklik və eynilik keyfiyyətləri bəxş edərək onları birləşdirir.

**1- Nil çayının şimal sahillərində məskunlaşan misirlilərə xas xalq mahnıları:** Port-Səiddən Mərsə-Matruha qədər uzanan ərazi Misir Ərəb Respublikasının şimal sahilləri hesab olunur. Bu regionda ifa olunan xalq mahnıları regionun ləhcəsinə uyğun olaraq orijinallığı və spesifik xüsusiyyətləri ilə diqqəti cəlb edir. Belə ki, qeyd olunan regionda xalq mahnılarının ifası zamanı Avropa heca üslubundan, başqa sözlə desək "silabik" yəni, sözlərin aydın vurğu altında kiçik hissələrə bölünməsi üsulundan istifadə olunur. Qeyd edək ki, belə bir üslub ərəb dilində mövcud olmayıb, yalnız latın dillərinə xas olan bir xüsusiyyətdir.

Misirin şimal sahillərinə aid xalq mahnılarında melodik quruluş xalqın həyatı ilə sıx bağlı olmaqla yanaşı, onun inkişafı və tərəqqisi ilə ayaqlaşaraq daha canlı və zəngin təəssürat yaradır. Böyük bir regionu əhatə edən bu xalq mahnıları əsasən bir nəfər solistin iştirakı ilə xorun ifasında səsləndirilir və mahnıların melodiyaları burada yaşayan əhalinin gündəlik gördükləri işlərin ahənginə uyğun olur: ya bu melodiyalar Nil çayında üzən qayıqların avarları kimi sürətli, ya da çaya balıq tutmaq üçün torun atılması işi kimi ahəstə, ya da ki, istirahət zamanı insanların dincəlməsinə uyğun olaraq urəklərə sakitlik, ruhlara qida verən lirik bir şəkildə ifadə olunur.

Haqqında söhbət açdığımız regionda xalq mahnılarının ifası zamanı ən çox istifadə olunan musiqi aləti kiçik nağara-darabukkə, ən çox istifadə olunan ritmlər isə çəpik çalınması ilə müşayiət olunaraq iki qaşığın və ya qarşı-qarşıya qoyulmuş iki stəkanın bir-birinə döyəclənməsi, ya da stol və stullara döyəcləmə kimi ən sadə ritmlərdir. Qeyd edilən regionda xalq mahnıları adətən müyyən qədər insanın gecələr bir yerə toplaşıb maraqlı gecə söhbətləri etdiyi zaman ifa olunur, hətta bəzən səhərə kimi davam edir. Bu regionda xalq musiqilərinin ifasından ibarət konsert və tədbirlərdə akkordeondan da istifadə olunur. Nil çayının şimal sahillərində məskunlaşan misirlilərin xalq musiqilərinin ladlarına gəlincə isə onlar "Əcəm" və "Nəhavənd" ladlarından ibarət olur.

**2- Şəhərlərdə xalq mahnıları:** Böyük şəhərlərdə "Nəhavənd", "Rast" və "Bayatı" kimi ladlardan istifadəyə üstünlük verilir, dinamik, oynaq, aydın və canlı melodiyalar burdakı musiqi və mahnılarda daha xarakterikdir.

Xalq mahnılarının ifası zamanı əsas istifadə edilən musiqi alətlərinə gəldikdə ilk növbədə Ud, Rababa, Ney və Sulləmiyyə kimi xalq çalğı alətlərini qeyd edə bilərik. Lakin şəhər mühitində rəngarənglik və müxtəlif zövqlərin mövcudluğu səbəbi ilə qeyd edilən musiqi alətləri ilə yanaşı Kaman, Mizmar, Akkordeon kimi musiqi alətlərindən də istifadə olunur. Ritmik alətlərsiz şəhər mühitini təssəvür etmək çətindir. Elə bu səbəbdən də Darabukkə, Dəf, Bəncəz, Riq və s. bu kimi zərb alətləri musiqili məclislərin bəzəyinə çevirilir. Şəhərlərdə xalq mahnıları adətən xorla deyil, bir solistin iştirakı ilə səsləndirilir, ancaq nadir hallarda xorla ifaya da rast gəlmək mümkündür.

**3- Nil çayının deltasında yerləşən kəndlərdə xalq musiqiləri:** Nil çayının deltasında yerləşən kəndlərdə xalq musiqiləri sürətli melodiyalara deyil, əksinə sakit və axıcı melodiyaya malikdir. Bu musiqilərdə gözlənilməz melodik sıçrayışlar, sürətli ritmlər tamamilə mövcud deyildir. Saf, təmiz hava sanki kəndlilərin nitqinə də



təsirsiz ötüşməmişdir, belə ki, bu regionun əhalisi aydın, səlis və düzgün danışıq tərzi ilə hamını valeh edir. Mahnı mətnlərinin açıq və uzun qafiyələri ifaçıya improvizə etməyə və sənətkarlıq məharətini göstərməyə şərait yaradır. Əksər hallarda müğənni eyni melodiya üzərində müxtəlif sözlərə malik mahnıları ifa edir. Ney, Rababa, Mizmar və Baraban kimi musiqi alətlərinin istifadəsi ilə bahəm bum və duveyk kimi ikiqat ritmlərdən də istifadə olunur.

4- Səid regionu: Səid regionu Cizə və Asuan arasında yerləşir. Bu regionun əhalisi qaynar təbiəti və həssaslığı ilə fərqlənir. Həyat şəraitinin çətinliyi onları həyatın enişli-yoxuşlu yollarına bələd olmağa, başqa sözlə həssaslıq, emossionallıq və çılğınlıq kimi keyfiyyətlər əta etmişdir. Bu regionun əhalisinin danışıq tərzi və sözlərin tələffüzü də başqa regionlarda yaşayan əhalinin danışıq tərzindən bəzi səciyyəvi xüsusiyyətlərinə görə fərqlənir. Belə ki, Səid əhalisi danışıq zamanı sözlərin son hecasını aydın bir vurğu altında tələffüz edirlər.

Səid musiqisi axıcılığı, sakitliyi, aydınlığı və insanın ruhunu oxşaması ilə səciyyələnir. Melodik keçidlər bu regionda Nil çayının deltası regionuna aid melodik keçidlərindən daha cürətlidir. “Rast” və “Bayatı” kimi ladlardan daha çox istifadə olunur, lakin “Əcəm” və “Nəhavənd” ladlarına nadir hallarda müraciət olunur. İfa olunan xalq mahılarını ritmık müşayiət etmək üçün bu regionda dəf musiqi alətinin müxtəlif ölçülərindən istifadə olunur. Səid regionunda xalq mahnılarını müşayiət edən ritmlərə gəldikdə qeyd etmək lazımdır ki, onlar aydın və güclü zərbəyə malik ikiqat ritmlərdir.

**5- Nuba regionu:** Nuba regionu cənubdan Sudanla sərhəddən başlayaraq şimalda Asuana kimi uzanan bir məsafədə məskunlaşan spesifik adət-ənənələrə malik qəbilə və tayfaları əhatə edir. Qeyd etmək lazımdır ki, bu regionun əhalisi ərəb ədəbi dilindən kifayət qədər fərqlənən xüsusiyyətləri özündə cəmləşdirən Nuba dilində bir-biri ilə ünsiyyətdə olurlar. Nuba regionunun yerləşdiyi coğrafi mövqe burada məhz Afrikaya xas olan tipik folklor nümunələrinin yaranmasına səbəb olmuşdur. Tədqiqatçılar belə qənaətə gəlmişlər ki, Nuba regionunda ifa edilən musiqi əsərləri də öz quruluşu etibarilə Afrika qitəsi musiqisinə aid cəhətləri özündə ehtiva edir. Onlar öz fikirlərini Nubada səsləndirilən musiqi nümunələrində Afrikaya xas beşpilləli musiqi qammasından istifadə olunmasında və musiqiçilərin mürəkkəb melodik və ritmik tərkiblərə müraciət etmələri ilə sübut edirlər.

Bu regionda fərdi və qrup halında rəqsləri əsasən dəf, müxtəlif ölçülü tar, quruluşu baxımından “simsimiyyə” musiqi alətinə





bənzəri olan beş simli Tanburin kimi musiqi alətlərinin istifadəsi ilə yaranan mürəkkəb ritm müşayiət edir. Tanburin forma və tərkibi baxımından gitar və firon kənarəsinə də çox oxşayır. Qeyd edək ki, həm tanburin, həm simsimiyyə, həm də firon kənarəsi eyni yolla köklənir və səsləndirilir. Bunlardan əlavə ritm yaratmaq üçün çəpik çalma vasitəsinə də müraciət olunur.

**6- Səhrada məskunlaşan əhalinin xalq mahnıları:** Qərbi Səhrada, vahələrdə, Matruhda, Şərqi Səhrada və Sina yarımadasında yaşayan köçəri bədəvilərin xalq mahnılarında melodiya dar melodik diapazona malik olması ilə səciyyələnir. Bədəvilər sadə və sakit melodiyalardan istifadə edirlər. Xalq musiqiləri beşpilləli **hamma** və ladlar üzərində qurulur. Diqqəti cəlb edən maraqlı cəhətlərdən biri də ondan ibarətdir ki, köçəri bədəvilər xalq müsiqilərini qrup şəkilində ifa edirlər. Həmçinin qeyd etmək lazımdır ki, onlar özlərinə xas rəqsləri də fərdi şəkildə qrup halında oynayırlar. Ritmlərə gəldikdə isə nağaraya zərbə, çəpik çalma, ayaqları yerə vurma və taxta ağac parçalarını bir-birinə döyəcləmə kimi orijinal formalardan istifadə olunur.

**7- Süveys kanalı regionu:** Bu region şimaldan Port-Səiddən başlayaraq Süveys kanalı boyunca cənuba doğru uzanan bir ərazini əhatə edir. Araşdırmalar sübut edir ki, bu regionda əvvəllər yalnız quruluşca və səs etibarı ilə Nuba tanburininə oxşayan simsimiyyə musiqi alətindən istifadə olunub. Lakin “Rast” və “Əcəm” ladlarında beşpilləli musiqi qammasından yeddipilləli musiqi qammasına pentatonika, sonralar isə simsimiyyə ilə yanaşı Nağara, Tar, Bəncəz kimi musiqi alətlərindən istifadə edildi. Ritimlər isə qaşığın iki istəkən və ya butulka arasında hərəkət etdirilərək onlara vurulmasından və ya çəpikçalma kimi vasitələrldən ibarətdir.

Süveys kanalı regionunda xalq mahnıları kollektiv şəkildə müəyyən bir solistin rəhbərliyi ilə səsləndirilir və solist tərəfindən dialoq şəklində, deyişmə tərzində ifa olunur. ◆

